Şüa diaqnostikası

1) Rentgenoqramanın geometrik qeyri-dəqiqliyi aşağıdakılardan hansından asılı deyil?
A) Fokus ləkəsinin ölçülərindən
B) Pasiyent-plyonka məsafəsindən
C) Fokus-plyonka məsafəsindən
D) Çəkiliş zamanı pasiyentin hərəkətindən
E) Fokus-plyonka və pasiyent-plyonka məsafələrdən

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология» М.Медицина, 1993. 560 с.

2) Rentgen şüalanmanın sahəsi hansı intervalda yerləşir?
A) Radiodalğalar və infraqırmızı şüalar arasında
B) Radiodalğalar və maqnit sahəsi arasında
C) Ultrabənövşəyi şüalanma və maqnit sahəsi arasında
D) Ultrabənövşəyi və qamma-şüalanma arasında
E) İnfraqırmızı və ultrabənövşəyi şüalanma arasında

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология» М.Медицина, 1993. 560 с.

3) Rentgen şüalanmanın hansı xüsusiyyətləri onun bioloji təsirini müəyyən edir?
A) Daxil olma qabiliyyəti
B) Cavabların hamısı doğrudur
C) Atomların ionizasiyalanma qabiliyyəti
D) Bioloji toxumalarda istiqamətinin dəyişməsi
E) Şüa yayılmasının sürəti

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология» М.Медицина, 1993. 560 с.

4) Hansı toxuma ionizasiya şüalanmasına qarşı daha həssasdır?
A) Əzələ toxuması
B) Qanyaradıcı toxumalar
C) Miokard toxuması
D) Epitel toxuması
E) Dəri toxuması

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология» М.Медицина, 1993. 560 с.

snsk.az-dən pulsuz istifadə üçün

5) Sİ sistemində ekvivalent dozanın vahidi nədir?
A) Zivert
B) Rentgen
C) Rad
D) Ber
E) Qrey

Ədəbiyyat: «Руководство по ядерной медицине» под ред. Т.П.Сиваченко. Киев.1998.536с.

6) Zivert vahidi nəyə bərabərdir?
A) 100 Ber
B) 1 Rentgen
C) 10 Ber
D) 0.1 Qrey
E) 10 mlR

Ədəbiyyat: «Руководство по ядерной медицине» под ред. Т.П.Сиваченко. Киев.1998.536с.

7) Bir Qrey nəyə bərabərdir?
A) 10 Rad
B) 0,1 Rad
C) 100 Rad
D) 10.000 Rad
E) 1.000 Rad

Ədəbiyyat: «Руководство по ядерной медицине» под ред. Т.П.Сиваченко. Киев.1998.536с.

8) Kompüter tomoqrafiyası (KT) zamanı hansı detektorlardan istifadə olunur?
A) Yarımkeçirici element və ksenon detektorlardan
B) Ancaq yarımkeçirici elementlərdən
C) Adi rentgen ekranlardan
D) Ancaq ksenon detektorlardan
E) Gücləndirilmiş rentgen ekranlardan

sinsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: D.Sutton “Radiology and Imaging for Medical Students”. London. 1988. 252 p.

9) Kompüter tomoqrafiyasında “güclənmə” üsulu nə deməkdir?
A) Rentgen kontrast maddənin damara vurulması şərti ilə tomoqrafiya
B) Obyektin incə təbəqələrinin alınması ilə
C) Rentgen şəklin generatorunun gərginliyinin yüksəlməsi
D) Rentgen şüavericinin çəkilən obyekt ətrafında hərəkət sürəti
E) Verilən cavabların hamısı doğrudur

Ədəbiyyat: Baxşiyev B.Ə. Radiodiaqnostika. Bakı. 2007. 446 s.

10) Arxa kəllə çuxuru patologiyasını aydınlaşdırmaq üçün hansı müayinə daha məqsədəuyğundur?
A) Radioizotop
B) Rentgen
C) KT
D) MRT
E) USM

Ədəbiyyat: Kraniospiral Maqnyetik Rzonans. Edit. Prof. Dr. İlhan Erden. 2003, səhfə 99

11) Tibbi diaqnostik müayinə metodunun “effektivliyi” kriteriyasına hansı müddəa cavab verir?

A) Müəyyən xəstəliyi olan insanlar qrupunda diaqnostik müayinəsinin həmən xəstəliyi aşkarlamaq qabiliyyəti
B) Müəyyən xəstəliyi olan insanlar qrupun daxilində xəstəliyi aşkarlanmamış insanlar ilə həqiqi sağlam insanların diferensiasiyasında diaqnostik metodun müvəffəqiyyəti
C) Optimal şəraitdə istifadə olunmuş diaqnostik metodun son həkim qərarına təsir etmək iqtidarı
D) Müəyyən xəstəliyi olan insanlar qrupunda, ortalaşmış şəraitdə keçirilən diaqnostik metodun müvəffəqiyyətli istifadəsindən alınmış nəticə
E) Diaqnostik metodun dəqiq nəticələrinin bütün alınmış nəticələrə nisbətləri

Ədəbiyyat: Основные диагностические критерии в доказательной диагностической медицине. Рекомендации ВОЗ 2001

Yalnız azərbaycanlıq istifadə üçün

12) Tibbi diaqnostik müayinə metodunun “ qüvvəsi ” kriteriyasına hansı müddəa cavab verir?

A) Diaqnostik metodun dəqiq nəticələrinin bütün alınmış nəticələrə nisbəti
B) Müəyyən xəstəliyi olan insanlar qrupunda diaqnostik müayinəsinin həmən xəstəliyi aşkarlamaq iqtidarı
C) Müəyyən xəstəliyi olan qrupda, ortalaşmış şəraitdə diaqnostik metodun müvəffəqiyyətli nəticələri
D) Optimal şəraitdə istifadə olunmuş diaqnostik metodun son həkim qərarına təsir etməsinin dərəcəsi
E) Müəyyən xəstəliyi olan qrupun daxilində xəstəliyi aşkarlanmamış insanlar ilə həqiqi sağlam insanların diferensiasiyasında diaqnostik metodun qabiliyyəti

Ədəbiyyat: Основные диагностические критерии в доказательной диагностической медицине. Рекомендации ВОЗ 2001

13) Tibbi diaqnostik müayinə metodunun “spesifikliyi” kriteriyasına hansı müddəa cavab verir?

A) Müəyyən xəstəliyi olan qrupda, ortalaşmış şəraitdə diaqnostik metodun müvəffəqiyyəti
B) Müəyyən xəstəliyi olan insanlar qrupunda diaqnostik müayinənin həmən xəstəliyi aşkarlamaq qabiliyyəti
C) Optimal şəraitdə istifadə olunmuş diaqnostik metodun həkimin son qərarına təsir etmək iqtidarı
D) Müəyyən xəstəliyi olan insanlar qrupun daxilində xəstəliyi aşkarlanmamış insanlar ilə, həqiqi sağlam insanların diferensiasiyasında diaqnostik metodda olan potensial
E) Diaqnostik metodun dəqiq nəticələrinin bütün alınmış nəticələrə nisbətləri

Ədəbiyyat: Основные диагностические критерии в доказательной диагностической медицине. Рекомендации ВОЗ 2001

14) Tibbi diaqnostik müayinə metodunun “dəqiqliyi” kriteriyasına hansı müddəa cavab verir?

A) Müəyyən xəstəliyi olan qrupda, ortalaşmış şəraitdə diaqnostik metodun müvəffəqiyyəti
B) Optimal şəraitdə istifadə olunmuş diaqnostik metodun son həkim qərarına təsiri iqtidarı
C) Diaqnostik metodun dəqiq nəticələrinin bütün alınmış nəticələrə nisbi yekunu
D) Müəyyən xəstəliyi olan insanlar qrupunda diaqnostik müayinənin həmən xəstəliyi aşkarlamaq qabiliyyəti

snsk.az ödənişsiz istifadə üçün

E) Müəyyən xəstəliyi olan insanlar qrupun daxilində xəstəliyi aşkarlanmamış insanlar ilə həqiqi sağlam insanların diferensiasiyasında diaqnostik metodun imkanları

Ədəbiyyat: Основные диагностические критерии в доказательной диагностической медицине. Рекомендации ВОЗ 2001

15) Qarın boşluğunun patalogiyaları zamanı KT müayinəsinə göstərişlər hansıdır?
1. Mədə-bağırsaq traktının motor-evakuator funksiyasının təyini
2. Şişlərin inkişaf mərhələlərinin təyini
3. Qarın boşluğunda palpasiya olunan törəmənin xarakterinin təyini
4. Mədə bağırsaq traktının zədələnmiş divarlarının vəziyyətinin təyini
5. Mədə-bağırsaq traktının diskineziyasının təyini

A) 1, 3
B) 2, 4, 5
C) 2, 3, 4
D) 1, 2, 3
E) 1, 2, 3, 4, 5

Ədəbiyyat: Джон Г. Стрэнг, Викрэм Догра. Секреты компьютерной томографии. Грудная клетка, живот, таз. Пер. с анг. М. 2009. 446 с.

16) Hirşprunq xəstəliyi üçün daha informativ diaqnostik üsul hansıdır?

A) Radioizotop müayinəsi
B) Ultrasəs müayinəsi
C) Kontrastlı rentgenoloji müayinə
D) Maqnit Rezonans tomoqrafiya
E) Endoskopik kolonofibroskopiya

Ədəbiyyat: B.Baxşiyev Ümumi rentgenologiya. Bakı. 1976

17) Qeyrispesifik aortoarteriit (Takayasu xəstəliyi) zamanı adətən hansı damarlar zədələnir?

A) Abdominal arteriyalar
B) Aşağı ətraf arteriyaları
C) Yuxarı ətraf arteriyaları
D) Aorta qövsü və onun magistral şaxələri
E) Serebral arteriyalar

snsk.az-dən istifadə üçün

Ədəbiyyat: Direct Diagnosis in Radiology, Vascular Imaging, Karl-Juergen Wolf, 2011

18) Kəllədaxili metal yad cisim hansı müayinədə daha dəqiq lokalizasiya edilir?

A) Nativ KT müayinəsində
B) Kontrastlı MR müayinəsi zamanı
C) Rentgenoqrafiya zamanı
D) Nativ MR-da
E) Bolyus kontrastlı KT-də

Ədəbiyyat: Диагностическая нейрорадиология В.Н. Корниенко, И.Н. Пронин - 2008-2012

19) MRT müayinəsinin şərhi zamanı hansı terminlərdən istifadə olunur?

A) Hiperexogen, izoexogen, hipoexogen, anexogen sahələr
B) Hipodens, hiperdens, izodens ocaqlar
C) Soyuq ocaqlar, isti ocaqlar
D) Kölgəliklər, şəffaflıq azalması
E) Yüksək intensiv, zəif intensiv, izointensiv siqnal

Ədəbiyyat: Diagnostic İmaging Basics 2006. Lippincott ,

20) "Xoledox kistaların" Todani klassifikasiyasına aid olmayan anatomo-morfoloji –radioloji müddəalar hansıdır?

A) Ekstrahepatik öd yollarının çox saylı kistalar
B) Xoledoxoselelər
C) Ekstrahepatik öd yollarının divertikulları
D) Xoledox daxilində "bəsit kista"
E) Xoledoxun seqmentar ya silindrik dilyatasiyaları

Ədəbiyyat: Diagnostic Imaging. Ultrasound . AHUJA. 2006 - 2007.

21) Omartrit hansı oynağın patologiyasıdır və nə deməkdir?

A) Bazu oynağının iltihabı
B) Oma - qalça oynaqlarının artriti
C) Qamış incik oynağlarının idiopatik epikondiliti
D) Ayaqdarağı - falanqa oynaqların aseptik nekrozu
E) Qığırdaqarası birləşmələrin travmatik kollagenozu

snsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: “Diagnostic imaging- Pediatrics - “Amyrsys” , 2008.

22) Keros klassikiasiyası hansı strukturların radioloji şərhində istifadə edilir ?

A) Böyük oksipital dəliyinin forması və ölçülərini KT və MR- da anomal quruluşunu əks etdirmədə
B) Dalaq kistalarının əsas 3 patoloji tipinin diferensiasiyasında işlənilir
C) Orta qulaq anatomik quruluşunun nisbi qiymətləndirilməsində
D) Ön kəllə çuxurunun strukturların anatomik şərhinə daxildir
E) Çiyin oynağında akromial çıxıntının əyriliyinin və formasının klassifikasiyasında istifadə olunur

Ədəbiyyat: Diagnostic İmaging Basics 2006. Lippincott ,

23) Qida borusu selikli qişasının büküşlərin sayı neçədir?

A) Qida borusunun büküşlərini saymaq olmur
B) Qida borusunda büküşlər olmur
C) 2 – 3
D) 1
E) 4-5

Ədəbiyyat: B.Baxşiyev Ümumi rentgenologiya. Bakı. 1976

24) Mədənin selikli qişasının büküşlərinin sayı adətən neçə olur?

A) 1-2
B) 2-3
C) 7-8
D) 6-7
E) 4-5

Ədəbiyyat: B.Baxşiyev Ümumi rentgenologiya. Bakı. 1976

25) Spontan boşalan ağciyər absesi üçün hansı simptom patoqnomonik ola bilər?

A) Absesin daxilində sekvestrasiya yaranır, bu öz növbəsində rentgendə üfüqi və qarışıq “hava- maye” görüntüsünü yaradır
B) Abses kapsulası daxilində “horizontal” hava- maye səviyyəsi yaranması mümkündür
C) Absesin ətrafındakı medial pulmonar parenximdə, çox saylı, mediastinal istiqamətli kölgələrin, 1-2 gün ərzində formalaşması və üfüqi hava – maye boşluqlarin yaranması
D) Abses formasının kələ-kötür konturları yaranması bildirir

smsk.az ödənişsiz istifadə üçün

E) Yastı formaya malikdir, daxilində hava- maye yaranması ola biləcək, və nəfəs zamanı bulanıq hava ilə dolur

Ədəbiyyat: Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

26) Bifrontal, bikaudal indekslər hansı analizdə istifadə edilir?

A) Serebral ventrikulyar hipertenziyanın dərəcəsinin şərhində istifadə edilir
B) Hidrosefalik ventrikulyar dilyatasiya dərəcəsinin statusunun şərhində
C) İntraventrikulyar pulsativ təzyiqin dərəcəsinin şərhində bu göstərici işlənilir
D) Fetal sefalik indekslərin ölçməsinin əsas punktudur
E) Hidrosefalik ventrikulyar sisteminin dislokasiyasının dərəcəsinin qiymətləndirilməsinə aiddir

Ədəbiyyat: Textbook of Radiology and İmaging – D. Sutton 2009

27) Ağciyərlərin diffuz xəstəlikləri zamanı hansı rentgenoloji müayinə üsulu daha informativdir?

A) Rəqəmsal rentgenoqrafiya
B) Radioizotop müayinəsi
C) Yüksək keyfiyətli kompüter tomoqrafiyası (KT)
D) Maqnit - rezonas tomoqrafiya
E) İcmal Rentgenoqrafiya (ön və yan proyeksiyada)

Ədəbiyyat: Под ред. А.Г. Чучалина. «Пульмонология: национальное руководство» 2009г.Y.Efendiyev

28) Hansı anatomik struktur ostiomeatal kompleksə aid deyil?

A) Ön etmoidal kompleks
B) Onodi hüceyrəsi
C) Qarmaqlı lövhələr
D) Rozenmüller çuxurları
E) İnfundibulum maxilla

Ədəbiyyat: Секреты рентгенологии. Д. Кац, Р. Кейвин, 2003

29) Qalxanabənzər vəzin xarici kapsulunu hansı anatomik struktur yaradır?

A) Dəri örtüyü
B) Dərialtı piy toxuması
C) Boyun fassiyaları

sinsk.az ödənişsiz istifadə üçün

D) Paratiroid fassiya
E) Dərialtı əzələ

Ədəbiyyat: Diagnostic Imaging, Ultrasound, Ahuija 2007

30) Qida borusu normada harada yerləşir?

A) Yüxarı boş venanın önündə
B) Arxa sol divaralığında
C) Orta divaraliğında
D) Retroperitoneumda
E) Ön divararalığda

Ədəbiyyat: B.Baxşiyev Ümumi rentgenologiya. Bakı. 1976

31) Mədənin giriş dəliyi necə adlanır?

A) Z-xətti
B) Antrum
C) Kardiya
D) Sinus
E) Pilorik hissə

Ədəbiyyat: B.Baxşiyev. Ümumi rentgenologiya. Bakı. 1976

32) Ultrasəs zamanı aşkarlanın Ridel payı aşağıdakılardan hansına cavab verir?

A) Dalağın əsas hissəsi ilə birləşməmiş əlavə paycıqlar
B) Qaraciyərin sağ payının "dil" formalı çıxıntılı anomaliyası
C) Qaraciyərin kvadrat payında sekvestrləşmiş və müstəqil qan təchizatı olan abnormal əlavə parenximatoz srukturlar
D) Dalağın əsas hissəsi ilə birləşmiş əlavə medial pay
E) Qaraciyərin "uzanmış" anomal sol pay

Ədəbiyyat: Основы УЗИ: Ультразвуковая диагностика в хирургии: основные сведения и клиническое применение: Харнесс Дж. 2005

33) Normada aşağı ətraf arteriyalarında hansı tip axın izlənir?

A) Bifazalı axın
B) Kollateral tipli
C) Magistral və kollateral tipli

sinsk.az ödənişsiz istifadə üçün

D) Magistral tipli axın
E) Monofazalı axın

Ədəbiyyat: Introduction to Vascular Ultrasonography; W.Zwiebel, J.Pellerito, 2006

34) Normada doppler US müayinəsi zamanı qaraciyərin portal venasında qan axını hansı istiqamətli olur?

A) Hepatopetal
B) Hepatopetal – hepatofugal
C) Hepatofugal
D) Ümumi qaraciyər arteriyasının qan axınının əksi istiqamətdə olur
E) Qaraciyər venalarının qan axınının istiqaməti ilə eyni olur

Ədəbiyyat: Introduction to Vascular Ultrasonography; W.Zwiebel, J.Pellerito, 2006

35) Normada doppler müayinəsi zamanı qaraciyər venalarında qan axınının istiqaməti və xarakteri necə olur?

A) İki istiqamətli və turbulent
B) Bir istiqamətli və laminar
C) Bir istiqamətli və kongruent
D) Müxtəlif istiqamətli və turbulent axın
E) Müxtəlif istiqamətli və laminar axın

Ədəbiyyat: İntroduction to Vascular Ultrasonography; W.Zwiebel, J.Pellerito, 2006

36) Mədəaltı vəzin v.mezenterica superior və a.mezenterica superior-un arxa hissəsində qalan hissə necə adlanır?

A) Pankreasın quyruqlu hissəsi
B) Pankreasın boyun hissəsi
C) Cismi
D) Qarmağabənzər çıxıntı
E) Baş hissəsi və cismi

Ədəbiyyat: Узи в гастроентерологии. Савелло В.Е. 2010. 136с. «Практическое руководство по ультразвуковой диагностике» под ред.Митькова. Видар-М. М.2003. 698с.

37) Vertebral arteriyanın necə anatomik seqmenti var?

sinsk.az ödənişsiz istifadə üçün

A) 5
B) 6
C) 2
D) 3
E) 4

Ədəbiyyat: Clinical Anatomy for Medical Students, Richard S. Snell, 1995

38) Aşağıdakı müddəalardan hansı kiçik çanaq strukturları üçün yalnışdır?

A) Kiçik yaşlı uşaqlarda sidik kisəsi abdomino-pelvik orqan sayılır
B) Median sakral arteriya qarın aortası bifurkasiyasından başlanır
C) Kiçik çanaq üzvlərinin arterial qan təchizatı əsasən daxili iliak arteriyaların hesabınadır
D) Pelvik divarlarda yerləşən venaların divarı çox nazikdir və pelvis zədələnmələrində bəzən ciddi qanaxma yaradır
E) Pelvik limfa düyünləri median sakral arteriya ətrafında konsentrasiya olunur

Ədəbiyyat: Clinical Anatomy for Medical Students, Richard S. Snell, 1995

39) Limfatik vəzlərin hansı anatomik qrupu boyun sahəsinə aid deyil?

A) Qulaq ətrafı düyünlər
B) Sublinqval limfadüyünlər
C) Retrofarinqeal vəzlər
D) Körpücüküstü limfatik qrup
E) Üz sahəsinin vəzlər

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

40) Mədəaltı vəzinin quyruğu adətən hansı döş fəqərələrin səviyyəsində yerləşir?

A) XII -L2
B) L2- L3
C) IX - X
D) X
E) XI - XII

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

41) Hansı kəllə-beyin sinirlərinin nüvələri uzunsov beyində yerləşir?

A) IX, X, XI, XII

sisk.az ödənişsiz istifadə üçün

B) XII
C) VIII, IX, X, Xİ,Xİİ
D) VII, XI, XII
E) XI XII

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

42) Yan mədəciklərin III mədəcik ilə əlaqəsini hansı anatomik struktur yaradır?

A) Majandi dəliyi
B) Mədəciklər arası Silvi akveduktu
C) Mədəciklər arası Monroe dəlikləri
D) Şəffaf arakəsmə boşluğu
E) Lüşka dəliyi

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

43) Göz almasının hərəkətinə cavabdeh olan sinirlər hansılardır ?

A) VI, VII
B) I,III,V
C) V,VI,VII
D) III, IV,VI
E) II,III,IV

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

44) Alın payı təpə payından hansı şırım ilə ayrılır?

A) Köndələn ənsə şırımı ilə
B) Mərkəzi şırımlar ilə
C) Anqulyar şırım ilə
D) Opercular şırımı ilə
E) Paylararası şırımı ilə

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

45) Hansı anatomik struktura triqeminal (üçlü) sinirə aiddir?

A) Qara nüvələr
B) Aksonlarında Purkinya düyünləri olur
C) Şmorl tipli düyün periferik zonada yerləşir
D) Sinirə Qasser düyünü daxildir
E) Aşof -Tavar düyünləri əlavə olunur

Ədəbiyyat: Diagnostic Imaging. Head and Neck. Harnsberger. 2006 - 2007.

snsk.az ödənissiz istifadə üçün

46) “Kruvelhiye oynağı” termini aşağıdakılardan hansı oynaqlara aiddir?

A) Alt çənə oynağının artoz formalaşması
B) Talokalkaneal oynaqlar
C) Travmadan sonra normal osteogenez posulması nəticəsində “yalançı oynaq” yaranması
D) Median atlantoaxial oynaq
E) Tarsometatarsal oynaqlar

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

47) Abdominal aortanın bifurkasiyası adətən hansı fəqərə səviyyəsində yerləşir?

A) L5
B) L3
C) L2
D) L4
E) L5-S1

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

48) Sağ v. testicularis hansı venaya açılır?

A) V.porta
B) V.renalis dextra
C) V.presaacralis sinistra
D) V. scrotalis propria
E) V.cava inferior

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

49) Kiçik piyliyin tərkibində aşağıdakı anatomik strukturlardan hansı olmur?

A) Aşağı boş vena
B) Ümumi öd axarı
C) Hepatik arteriyasının şaxələri
D) Portal vena şaxələri
E) Limfa düyünləri

50) Divararalığının anatomik quruluşu şərhinə aid olan hansı müddəa doğru deyil ?

A) Divararalığın daxilinə frenik, kardiak sinirlər və torakal axar da aiddir
B) Yuxarı ön divararalığı ön/ arxa hissəsinə bölünməsi olmur

Sinsk.az ödənişsiz istifadə üçün

C) Aşağı divararalığın ön / orta / arxa hissələri var
D) Felson klassifikasiyasına görə divararalığı on, orta və arxa hissələrə bölünür.
E) Yuxarı və aşağı mediastinal hissələrin sərhədi Th 6-7 intervertebral disk tipik sayılır

51) Sol v.testicularis hansı venaya açılır?
A) V.renalis dextra
B) V.porta
C) V.cava
D) V.iliaca mediana
E) V.renalis sinistrae

Ədəbiyyat: Clinical Anatomy for Medical Students. Richard S.Snell. 1995

52) Baş beyində kəskin işemik insult zamanı aşağıda sadalanan hansı MR sekansları daha informativdir?

A) STİR, PD/FS
B) T2,T1
C) DWİ, Kontrastlı T1
D) DWİ, FLAİR
E) T2, T2*

Ədəbiyyat: Anne G.Osborn, Karen L. Salzman, A. James Barkovich,Gregory L. Katzman/ Diagnostic İmaging Brain - Second edition // Amirsys nəşriyyat evi; 2013,I(4):116

53) De Garengeot yırtığı terminə hansı patoloji anlayış müvafiqdir?

A) Daxilində iltihablaşmış appendikulyar çıxıntı yerləşən sağ tərəfli femoral yırtığın eponimik sinonimdir
B) Fəqərə disklərinin fibroz halqalarının lateral (klinikası əhəmiyyətsiz olan) yırtığı
C) Orta qarın xəttinin postoperativ eventrasiyası
D) Diz oynağının medial meniskinin arxa buynuzunun parçalanması və arxaya dislokasiyası bu yırtığın mənasıdır
E) Diafraqmanın lateral hissəsinin abdomino-torakal yırtığı halları

Ədəbiyyat: Textbook of Radiology and İmaging – D. Sutton 2009

54) "Cavum velii interpoziti " boşluğunun aşkarlanması hansı postulatı əks edir?

A) Xroniki intrakranial hipertenziyanın əksidir
B) Prenatal asfiksiya ilə əlaqəli yaranmış inkişaf anomaliyasının nəticəsidir

sinsk.az ödənişsiz istifadə üçün

C) Mədəciklərin hidrosefalik dilyatasiyasının və likvor axının pozulması hallarında, obstruksiya artması nəticəsində inkişaf edir
D) Bu patologiya fetal dövrdə beyin inkişafının toksoplazmoz intoksikasiyası ilə əlaqəli olaraq yaranır
E) Serebral likvor boşluqlarin quruluş variantın rəmzidir

Ədəbiyyat: Диагностическая нейрорадиология . И.Н. Пронин - 2008-2012

55) Suallarda qeyd edilmiş eponimik terminlərdən hansı, əsasən soldan və arxa yerləşən, diafraqma yırtıqlara aid edilir?

A) Treyts hərəkətli bilateral yırtıqlar
B) Amiand tipli yırtıqlar
C) Bohdalek yırtığı
D) Bilateral Brokal yırtıq
E) Rixter tipli fəsadlaşmış yırtıq

Ədəbiyyat: Abdominal wall radiology - Bendavid R. et all/ , 2009

56) Aşağıdakılardan hansı elektromaqnit dalğaları hesab olunmur?
A) Rentgen şüaları
B) İnfraqırmızı şüalar
C) Rentgen və infraqırmızı şüalar
D) Radio dalğalar
E) Səs dalğaları

Ədəbiyyat: Т.И.Сиваченко, Д.С.Мечев «Руководство по Ядерной Медицине». Киев. 1998. 534с.

57) Aşağıdakılardan hansı rentgen plyonkanın xüsusiyyətləri ilə əlaqəli deyil?
A) Kontrastlılığı
B) Keyfiyyət və kontrastlılığı
C) Şəklin ölçüsü
D) Qaralmanın həcmi
E) Keyfiyyəti

Ədəbiyyat: А.Н.Кишковский, Л.А.Тютин, Г.Н.Есиновская «Атлас укладок при рентгенологических исследованиях». Л. Медицина. 1987. 520 с.

58) Transkranial ultrasəs doppleroqrafiyada [TCD] hansı diaqnostik pəncərələrdən istifadə olunur?

A) Temporal, oksipital və orbital

Sinif.az ödənişsiz istifadə üçün

B) Kəllə əmgəklərində yerləşən
C) Sagittal, koronar və aksial
D) Parietal və fronto-oksipital
E) Frontal, orbital və oksipital

Ədəbiyyat: Ю.М. Никитин, УЗИ допплерография в поражении магистральных артерий головы и основания черепа, 1993

59) Transkranial ultrasəs doppleroqrafiyada, 20-40 yaş qrupuna daxil olan insanlarda orta beyin arteriyasının normal diametri hansıdır?

A) 0.8-1.2 mm
B) 1.5-4.0 mm
C) 0.5-0.8 mm
D) 4.0-6.0 mm
E) 6.0-8.0 mm

Ədəbiyyat: Ю.М. Никитин, А.И. Труханова, УЗИ допплерографическая диагностика в клинике, 2004

60) Xass xəstəliyi termini radiologiyada hansı xəstəliyin eponimik sinonimidir?

A) Histiositozlarda yaranan reaktiv eozinofilik paranazal sinusitlərin və lokal divar destruksiyasında istifadə edilir
B) Dalaq və qara ciyərin anadangəlmə çox saylı hemanqiomaları ilə müşayiət olunan genetik xəstəlikdir
C) Osteogenezin tamamlanması ilə və metabolik klinik epizodlar ilə seçilən, anadangəlmə genetik xəstəlikdir
D) Terminin istifadəsi bazu sümüyünün başının avaskulyar nekrozu şərhində mümkündür
E) Anadangəlmə oynaqların hipermobilliyi xəstəliyin sinonimidir

Ədəbiyyat: Textbook of Radiology and İmaging – D. Sutton 2009

61) Lanherhans hüceyrəli histiositozlara aid olmayan radioloji termin hansıdır?

A) Letterer-Siwe histiositozu aiddir
B) Rosai- Dorfman sindromu patologiyası
C) Hand- Schuller-Christian xəstəliyi
D) Eozinofilik qranulyoma
E) Erdheim Chester lipid histiositozu daxildir

Ədəbiyyat: Diagnostic Imaging. Head and Neck. Harnsberger. 2006 - 2007.

snsk.az ödənişsiz istifadə üçün

62) Öd yollarının konkrementlərin təsnifatında hansı cavab doğru deyil?

A) Kiçik uşaqlarda konkrementin exogen akustik kölgəsi olmaya bilər
B) Fetusda (döldə) konkrementlər ola bilər
C) Kontrastlı xolesistoqrafiya bu xəstəlikdə ən dəqiq və spesifikdir
D) Uzun müddətli xolesitolitiaz öd kisəsinin tumorların yaranmasının etiofaktorlarından biridir
E) "Komet quyruğu" USM əlaməti öd daşların görüntüsündə rast gəlir

Ədəbiyyat: Diagnostic Imaging. Ultrasound . AHUJA. 2006 - 2007.

63) Sağlam insanlarda tibbi rentgenoloji yoxlama və elmi təcrübələr zamanı aparılan şüalandırmanın illik effektli dozasının maksimum həddi neçə olmalıdır?

A) 0.5 mZv
B) 1.0 mZv
C) 3.0 mZv
D) 2.0 mZ
E) 0.1 mZv

Ədəbiyyat: А.Я. Кацман «Лучевые нагрузки и противолучевая защита при рентгенодиагностических процедурах» Л.Медицина. 1966. 240 с.

64) Sİ sistemində 1.0 Tesla maqnit induksiyası necə SGS sistemində olan Qaussa bərabərdir?

A) 100 Qauss
B) 100000 Qauss
C) 1000000 Qauss
D) 10 Qauss
E) 10000 Qauss

Ədəbiyyat: А. Милько , Ф. Лазарь Медицинская радиология М. 2009.

65) Gadolinium xelatları hansı kontrastlar qrupuna aid edilir?

A) Radioizotop(radionuklid) kontrast preparatı kimi istifadə edilir
B) Paramaqnit kontrast materialı sayılır
C) Sferomagnit kontrastlar qrupundadır
D) Diamagnetik kontrast maddədir
E) Ferromagnetik qrupuna aiddir

Ədəbiyyat: Ədəbiyyat: А. Милько , Ф. Лазарь Медицинская радиология М. 2009.

snsk.az ödənişsiz istifadə üçün

66) Levovist preparatı hansı müayinə metodunda istifadə edilir?

A) Kompyuter tomoqrafiya zamanı mədə bağırsaq sisteminin boşluqlarını doldurmaq üçün "per oral" qəbul edilir
B) Magnit rezonans tomoqrafiyasında "gücləndirici" intravenoz kontrast kimi yeridilir
C) Ultrasəs müayinəsində exosiqnalı gücləndirir (intravenoz kontrastlar qrupuna daxildir)
D) Kompyuter tomoqrafiya zamanı patoloji törəmələri daha aydın izləmək üçün intravenoz kontrast kimi damara vurulur
E) Transkranial dopplerografiya zamanı səthi gel kimi istifadə edilir

Ədəbiyyat: А. Милько , Ф. Лазарь Медицинская радиология. М. 2009.

67) Hamiləliyin ilk dövrlərində dolün tibbi şüalandırma riskini və zərərini qarşısını almaq üçün rentgen müayinəni nə zaman etmək lazımdır?
A) Reproduktiv dövrdə olan qadınlarda flyuroqrafiyadan istifadə etməmək
B) Rentgenoloji müayinələr menstrual siklin ikinci yarısında zərərsizdir
C) Rentgenoloji müayinələrdən əvvəl qadını ginekoloqun yanına göndərmək
D) Rentgenoloji müayinələr menstrual siklin 3 – cü trimestrində keçirilir
E) Rentgenoloji müayinələri menstrual siklin ilk 10 günündə zərərsiz sayılır

Ədəbiyyat: А.Я. Кацман «Лучевые нагрузки и противолучевая защита при рентгенодиагностических процедурах» Л.Медицина. 1966. 240 с.

68) Rentgendə mədənin qastral kontrast ilə dolması zamanı çox saylı darayanı defektləri var. Bu kürəvari və yaxud papilyar kölgələrin ölçüləri diametrdə 0.5-1 sm- ə çatır, konturları dəqiqdir, səthi hamardır. Güman edilən dəqiq diaqnoz üçün hansı müayinə daha informativdir?

A) Konvensional, qeyri ionlu kontrastın əsasında, qastroqrafiya
B) Peroral kontrastlı kompüter tomoqrafiya
C) Bariumlu ənənəvi rentgenoqrafiya
D) Endoskopik qastroskopiya
E) Enterokliz vasitəli kompüterli tomoqrafiya

Ədəbiyyat: Власов П.В. Рентгено-диагностика заболеваний органов пищеварения. М.Видар. 2008. 280 с.

69) Aşağıdakılardan hansı qaraciyər payı deyil?

A) Kvadrat
B) Sol
C) Girdə
D) Sağ

Sınaq qabanışlı istifadə üçün

E) Quyruqlu

Ədəbiyyat: Г.А.Зубовский «Лучевая и ультразвуковая диагностика заболеваний печени и желчных путей». М.Медицина. 1988. 240 с.

70) Serebral damarların aterosklerozu ilə arteriolosklerozun radioloji fərqini əks edən aşağıdakı müddəalardan hansı doğru deyil?

A) Aterosklerozda magistral arteriyada aterosklerotik kalsifikatlar olmalıdır
B) Arteriolosklerozlarda MR–zamanı leykoaraioz və yaxud periventrikulyar leykoensefalopatiya şəklində ola bilər və xırda damarların zədələnməsi ilə müşayiət olunur
C) Aterosklerozlarda, arteriolosklerozdan fərqli olaraq, kontrast, T1WI sekanslarda kalsikifatların horizontal tipli "aliazing" artifaksiyasına səbəbdir
D) Arteriolosklerozz mikroangiopatiya əlamətləri ilə seçilir
E) Ateroskleroz eyni zamanda intra və ekstrakranial damarları zədələyə bilər

Ədəbiyyat: Neuroradiology : The Essentials with CT and MR.- V. Runge, W.Smoker - Thieme, 2012,

71) Dolixokolon nədir?

A) Bağırsağın deşilməsi
B) Bağırsağın daralması
C) Bağırsağın genəlməsi
D) Bağırsağın qısalması
E) Bağırsağın uzanması

Ədəbiyyat: П.И.Власов. Рентген диагностика заболеваний органов пищеварения. М. 2008. 280 с.

72) Qaraciyərin kistoz tipli metastazları hansı tumorlar üçün xarakterikdir?

A) Abdominal kistoz mezenximal tumora
B) Kolon xərçəngi və seminomaya
C) Ovarial adenokarsinoma və pankreatik kistoz tumorlarına
D) Kistoz angiosarkomalar və adrenal kistoz tumorlara
E) Hockin tipli limfomaya

Ədəbiyyat: В. Догра: Секреты ультразвуковой диагностики 2005

smsk.az ödənişsiz istifadə üçün

73) Dalaq parenximində kalsifikasiyaların yaranması hansı xəstəliyə xarakterik deyil?

A) Histoplazmoz mikotik infeksiyası
B) Sarkoidoza
C) Dalaq infarktının xroniki perioduna
D) Vərəm infeksiyası fəsadına
E) Pneumocystis carini infeksiyası

Ədəbiyyat: Textbook of Diagnostic Ultrasonography, Sandra L. Hagen – Ansert, 2005

74) Ormond xəstəliyinə aşağıdakı əlamətlərdən hansı aid deyil?

A) Periaortit ilə fəsadlaşan idiopatik fibroz
B) Retroperitoneal sahədə patoloji fibroz toxumanın hiperptrofiyası
C) Sidik axarının laterala; qarın aortası və aşağı boş venanın önə dislokasiyasının səbəbidir
D) Tək ya bilateral sidik axarı keçiriciliyinin pozulması və onların medial dislokasiyası halları
E) Xroniki böyrək çatmamazlığını yaradır

Ədəbiyyat: Direct Diagnosis in Radiology, Urogenital İmaging; B.Hamm, P.Asbach, D.Beyersdorff, P.Hein, U.Lemke, 2010

75) "Peyc böyrəyi" termini hansı morfoloji dəyişikliklərə aiddir?

A) Retroperitoneal hematom və fibroz nəticəsində böyrəyin sirkulyar kompressiyası halları
B) Böyrəyin çoxsaylı angiomiolipomaları
C) Böyrəyin unilateral limfostazı və proliferativ ocaqları
D) Böyrək parenximasının çoxsaylı kalsium tərkibli kistaları
E) Xroniki subkapsulyar hematom ilə əlaqəli böyrəkdə yaranmış parenximianın kompressiyası

Ədəbiyyat: Pocket Radiologist, Abdominal; Federle, Fishman, Jeffrey, Anne, 2003

76) Adrenal krizləri olan pasientlərdə Tsukerkandl cismi (paraqanqlionu) hansı tipik yerdə axtarılmalıdır?

A) Abdominal aortanın bifurkasiyasından aşağıda, iliak arteriyaların distal hissəsində olur

sınaq ödənişsiz istifadə üçün

B) Abdominal aortanın bifurkasiyasından yuxarıda, aşağı mezenterial arteriyanın kötüyün perivaskulyar toxumasında aşkar edilir
C) Böyrəküstü vəzin ətrafında
D) Perinefral toxumalarda və renal arteriyaların distal hissəsində yerləşir
E) Karotid bifurkasiya ətrafında

Ədəbiyyat: Д. Странг, Секреты компьютерной томографии, 2009

77) Neyrosonoqrafiya müayinəsində yan beyin mədəciklərin arxa buynuzlarının lokal genişlənməsi (kolposefaliya) hansı hal üçün xarakterik simptom sayılır?

A) Corpus callosum ageneziyası / hipogeneziyası
B) Mədəciklərdə obstruktiv (daxili) hidrosefaliya
C) Dandy – Walker sindromu
D) I tip Arnold – Chiari sindromu
E) Lobar holoprozensefaliya

Ədəbiyyat: УЗИ перинатальных поражений головного мозга; Зубарева Е.А., Дворяковский И.В., Зубарев А.Р., Сугак А.Б., 1999

78) Mühüm dərəcəli hidrosefaliyanın hidranensefaliyadan ən vacib patomorfoloji differensial fərqi hansıdır?

A) Böyük beyin yarımkürələrinin minimal kortikal layının mövcudluğu
B) Serebellyar tonzillərin kaudal dislokasiyası
C) Böyük ölçülü, mərkəzi yerləşimli ümumi mədəcik
D) Ventrikulomeqaliyanın dərəcəsi
E) Arxa kranial fossanın böyük ölçülü kista

Ədəbiyyat: Textbook of Diagnostic Ultrasonography, Sandra L. Hagen – Ansert, 2005

79) Hansı MR simptomlar və klinik–nevroloji-fizikal kompleks birliyi Tuberoz skleroz xəstəliyinə aid deyil?

A) Bilateral subkortikal kalsifikasiyalar, çox saylı biliyar hamartromalar, və Fleyşner dairəsi simptomokompleksi
B) Kortikal Taylor tipli displaziyalar və üzdə sebaseoz tipli adenomalar
C) Üz dərisində angiofibromalar, retinal hamartromalar, bilateral renal angiomiolipomlar və psixo-konqnitiv statusun inkişafın zəif olması
D) Kalsiləşmiş subependimal düyünlər, bilateral böyrək angiomiolipomaları, epileptik tutmalar

snsk.az ödənişsiz istifadə üçün

E) Subependimal giqant hüceyrəli astrositomalar, kortikal tuberlər və ağ ciyərin kistoz limfangiomatozu

Ədəbiyyat: Barkovich A.J Pediatric Neuroimaging -2008

80) CADASİL (serebral autosomal dominant arteriopatiya) hansı klinik-radioloji kriteri cavab verir?

A) Müəyyən yaş qrupundan asılı olmayan multilokal arterial–venoz anevrizmlərin yaranması
B) Beyin kötüyündə autosom-dominant leykomalyasiya və arterial divarların iltihabı olur
C) Orta yaşlı və yaşlı insanlarda temporal arteriit tipli kliniki halların mütəmadi epizodları yaranması
D) Cavan insanlarda subkortikal lakunar infarktlar və leykoensefalopatiya xarakterik olur
E) Cavan insanlarda multilokal arterial anevrizmlərin yaranması qeyd olunur

Ədəbiyyat: Radiology/, Metha, D. Bell - 2006

81) Pleomorf ksantoastrositomanı ən dəqiq əks edən kompleks hansıdır?

A) Mühüm vazogen ödemi olan, kalsiləşmiş tipli kortikal tumor
B) Epileptik tutmaları olan cavan insanlarda supratentorial,kortikal, kontrastlaşan mural düyünü olan, kistoz tipli, minimal perifokal ödemli törəmə-xarakterik haldır
C) Adətən bir yarımkürənin medial sahəsindən, kontralateral hemisferin mediobazal hissələrinə sirayət edir
D) Sol frontal payda yerləşən, ciddi klinik–nevroloji əlamətləri olmayan,T2 hiperintens, T1 hipointens, dəqiq sərhədləri olmayan, kontrastı aktiv akkumulyasiya etməyən infiltrativ törəmə
E) İV mədəciyin damından inkişaf edən və heterogen kontrast akkumulyasiyası olan, multinodulyar infiltrativ tipli, solid törəmə şəklində olur

Ədəbiyyat: Диагностическая нейрорадиология В.Н. Корниенко, И.Н. Пронин - 2008-2012

82) Lanherhans hüceyrəli histiositozlara aid olan radioloji morfoloji termin hansıdır?

A) Progressiv nodulyar histiositoma
B) Yuvenil sefalik histiositoz
C) Letterer-Siwe xəstəliyi
D) Gigant hüceyrəli retikulohistiositoma
E) Progressiv musinoz retikulohistiositoz

Ədəbiyyat: Румянцев А.Г. Гистоцитозы М. 2005

sisk.az ödənişsiz istifadə üçün

83) Fəsadlaşmış hamiləlikdən sonra (septik abort, eklampsiya, hipoperfuziya) aşağıda qeyd edilən renal patologiyalardan radioloq ilk növbədə hansını düşünməlidir?

A) Kortikal renal nekroz (kəskin işemik nekrozun nəticəsi) mümkündür
B) Renal medullyar nekroz inkar edilə bilməz
C) Kəskin renal tubulyar nekroz düşünüşməlidir
D) Nefrokalsinoz və Kortikal subkəskin nekroz güman edilir
E) Adətən renal papilyar nekroz yaranmasını

Ədəbiyyat: Diagnostic İmaging, Abdomen, Federle 2008

84) Uoterxaus- Fridriksen sindromunda həkim radioloq hansı patomorfoloji halı proqnoz etməlidir?

A) Böyrəküstü vəzlərin bilateral hiperplaziyasını
B) Hemorragik adrenaliti və meninqokoksemiya patoloji kompleksi
C) Tsukerkandl cisminin nekrozu olmalıdır
D) Böyrəklərdə kəskin piyelonefritin yaranması
E) Baş beyində massiv qansızmalar və hipokoaqulyasiya proqnozlaçdırılmalıdır

Ədəbiyyat: Diagnostic Imaging. Ultrasound . AHUJA. 2006 - 2007.

85) Radiologiyada "Stuma ovarii" teratoması morfostruktur xarakteristikasında hansı müddəa doğrudur?

A) Bu tumor ovariumlarda əsasən Tuberoz skleroz sindromunda inkişaf edir
B) Bu teratoid tumor əsasən yastı hüceyrəli toxumadan yaranır və nadir rastlaşır
C) Bu ovarial tumor bütün şistik ovarial tumorların 30 % -nı tərtib edir
D) Bu tumor tərkibində əsasən tiroid toxumasından ibarət olan morfoloji strukturası var
E) Bu paraovarial tumor əsasən kistoz komponentdən yaranmışdır

Ədəbiyyat: Pathology of the ovary – J. Pratt – , Sanders, 1 –st edition, 2011

86) Unilateral hippokampal sklerozun sinonimi hansıdır?

A) Talamik unilateral distopiya
B) Hippokampın qliotik fibrozu
C) Mezial temporal skleroz
D) Alzheymer tipli serebral atrofiya
E) Parahippokampal damarların arteriolosklerozu

Ədəbiyyat: Radiology/, Metha, D. Bell - 2006

snsk.az dənişsiz istifadə üçün

87) Hematogen osteomielit zamanı yaranan sümük dəyişikliklərin hansında KT müayinəsi, MR ilə və rentgenoqrafiya ilə müqayisədə daha effektiv və həssasdır?

A) Periostal hiperostozun və perostitin təyinində
B) Osteoskleroz yaranmasında
C) Ətraf toxumaların iltihablarının qeydində
D) Sekvestrlərin aşkarlanmasında
E) Tumoroz transformasiya zamanı

Ədəbiyyat: Медицинская радиология . Линденбратен Л.Д. 2008

88) Udlaqarxası absesin xarakterik rentgenoloji əlaməti nədir?
A) Qırtlağın deformasiyası
B) Qırtlağın arxa divarının selikli qişasının qalınlaşması
C) Onurğanın boyun fəqərələrinin lordozun düzlənməsi
D) Boyun fəqərələri səviyyəsində prevertebral sahənin yumşaq toxumalarının genişlənməsi və qaz qovuqcuqları
E) Boyun fəqərələri lordozunun düzlənməsi və qırtlağın deformasiyası

Ədəbiyyat: В.В.Яковец. «Рентгено-диагностика заболеваний органов головы, шеи и груди». Санкт-Петербург. 2002. 570 с.

89) Kəllə tağı sümüklərinin hemangioması üçün hansı rentgenoloji əlamətlər və simptom xarakterikdir?
A) Daxili hiperostoz
B) Xarici osteopoykiloliz
C) Nekrotik sahəli osteoliz
D) İriyuvalı strukturlu lokal osteoporoz sahəsi
E) Kifayətlənmiş osteoskleroz

Ədəbiyyat: А.Г.Веснин, И.И Семенов. «Атлас лучевой диагностики опухолей опорно-двигательного аппарата». Москва. 2002. часть1. 181с.

90) Xroniki irinli otit əsasən hansı hal ilə fəsadlaşır?
A) Sinusit
B) Rinit
C) Yevstaxit
D) Nevrinoma
E) Xolesteatom yaranması ilə

sinsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: В.В.Яковец. «Рентгено-диагностика заболеваний органов головы, шеи и груди». Санкт-Петербург. 2002. 570 с.

91) Qalxanabənzər vəz adenomu ətrafında USM-də zəif exogenli 1-2 mm qalınlıqda olan halqa nəyi əks edir ?

A) Düyünün ətrafında yaranmış tireoid toxumalarının ödeminı
B) Düyünün ətrafında formalaşmamış kapsulu və yod tərkibli hüceyrələrin aşağıkonsentrasiyasını göstərir
C) Düyünün ətrafında yaranmış tireoid toxumalarının ödemi və ətrafdakı limfatik damarlarında stazı
D) Düyünün ətrafında hiperemik qan damarlarında yüksək qan axının əksidir
E) Düyünün formalaşmış kapsulu, kompressiya olunmuş ətraf follikulları, qan və limfatik damarların mövcudluğunu

Ədəbiyyat: Diagnostic Imaging, Ultrasound, Ahuija 2007

92) Xaşimoto tireoiditlərində qalxanabənzər vəzin həcminə aid olan müddəa hansıdır?

A) Xasimoto xəstəliyində vəzin həcmi diaqnostik əhəmiyyətli simptom deyil
B) Azalır
C) Yalnız boyun hissəsinin həcmi normaldır
D) Normal qalır
E) Artır

Ədəbiyyat: Diagnostic Imaging, Ultrasound, Ahuija 2007

93) Maksilyar sinusun misetoması hansı prosesi əks edir?

A) Xroniki mikobakteriyal infeksiyasından yaranan xəstəlikdir
B) Xoş xassəli tumordur
C) Rosai – Dorfman sindromunda yaranır və aqressiv destruksiya ilə müşayiət edilir
D) Maliqnant, aqressiv, sümük destruksiya ilə müşayiət olunan, tumor deməkdir
E) Funqal etilogiyalı infeksiya səbəbindən yaranır

Ədəbiyyat: Diagnostic İmaging, Pediatrics, Donnely 2008

94) "Delfiyan düyün" adlanan radioloji simptom hansı patologiyaya aiddir?

A) İki buynuzu uşaqlığın (Uterus didelphys) buynuzların arasında təyin edilən fibromiomatoz, mural düyün
B) Laringeal kanserin bilavasitə yayılmasının simptomatologiyasıdır

Sınaq az öyrənilmiş istifadə üçün

C) Uşaq infeksion xəstəliklər zamanı çənəaltı limfatik düyünlərin bərkiməsi və böyüməsi deməkdir
D) Yeni doğulmuş uşaqlarda arxa oma spinal nahiyəsində anadangəlmə (natamam meniqosele anomaliyasının) dərialtı qabarmasıdır
E) Paranazal sinusların Wegener qranulyomatozlarında parafaringeal yaranan limfatik düyündür

Ədəbiyyat: Essential Radiology. R. Gundermann 1995

95) "Glomus jugulare paraqanqlioma" üçün hansı fikir yanlışdır?

A) Hipervaskulyar strukturludur
B) Karotid hemodektoma ilə histoloji quruluşu eyni olur
C) Kompüter tomoqrafiya son diaqnoz üçün mütləqdir
D) Sümük strukturların destruksiyası ilə müşayiət olunur
E) Glomus hüceyrələrdən inkişaf edir, agressiv və sürətli inkişafı tipikdir

Ədəbiyyat: Radiology/, Metha, D. Bell - 2006

96) Kiçik uşaqlarda boyun fibromatozu (SCMD psevdotumoru) üçün ən dəqiq morfo-radiloloji açıqlama hansıdır?

A) M. Sternokleidomastoideus fibrozundan və hipertrofiyasından ibarət patoloji kompleks
B) Kiçik yaşlı uşaqlarda iltihab mənşəlili psevdotumoroz miozit
C) Kiçik yaşlı uşaqların desmoid fibromatozu (anadangəlmə xəstəlik) və MR- da əzələlərin qalınlaşması ilə müşayiət edilən fibrotik transformasiya
D) USM-də döş – masseter məməyəbənzər əzələnin fibrokalsifikasiyası və gödəlməsi (idiopatik transformasiya)
E) KT- də və MR –da Boyun limfatik vəzlərin kalsifikasiyası ,əzələlərin hipotrofiyası - fibromatoz miozit

Ədəbiyyat: " Diagnostic imaging- Pediatrics - "Amyrsys" , 2008.

97) Hansı morofopatoloji- radioloji kompleks tuberkulyoz meningitləri üçün spesifikdir?

A) Sitrobakter mənşəli, lokal, xırda ocaqlar
B) Bazal sisternalarda iltihab derivatların yığılması və leptomeningit tipikdir
C) Proqressiv multifokal leykomalyasiya və çox saylı parenximatoz qansızmalar adi haldır
D) Temporal sümüklərdən inkişaf edən, bazal temporal abseslər
E) Limbik ensefalit yarfanması

Ədəbiyyat: Textbook of Radiology and İmaging – D. Sutton 2009

Sitsk.az ödənişsiz istifadə üçün

98) Genetik Hentinqton xoreya xəstəliyi hansı kontingentdə rastlaşır və bu xəstəliyə xas olan serebral radioloji- morfoloji dəyişikliklər hansılardır?

A) Əsasən 30- 50 yaşlı insanlarda atrofik nucleus kaudatus (bilateral) və frontal ventrikulyarbunuzların arasında distansiyasının stabil artımı statusu
B) Parkinson sindromunda yaranan putaminal bilateral T2/FLAİR yüksəlmiş siqnal və kalsifikasiyalar
C) 12 aylıq uşaqlarda lateral mədəciklərin üçbucaqları ətrafında T2 hiperintens siqnallar
D) Yeni doğulmuş uşaqlarin talamuslarında bilateral işemik zədələnmə
E) Kiçik yaşlı uşaqlarda operkulyar sahələrinin subaraxnoidal boşluqlarının bilateral dilyatasiyası və ətrafdakı insulyar kortikal atrofiya.

Ədəbiyyat: Neuroradiology : The Essentials with CT and MR.- V. Runge, W.Smoker - Thieme, 2012,

99) Unilateral servikal limfa düyünlərinin adenopatiyası hansı xəstəlik üçün patoqnomonik hal deyil?

A) Kimura xəstəliyi
B) İnfeksion mononukleoz
C) HİV xəstəliyi
D) Goşe xəstəliyi (Gaucher disease)
E) Beck tipli sarkoidoz

Ədəbiyyat: Expert DDX – Head and Neck; Harnsberger, Glastonbury, Michel, Koch, 2009

100) Küttner tumoru hansı orqana aiddir?

A) Çənəaltı tüpürcək vəzləri şişləri bu eponimi daşıyır
B) Rektal şişin ağ ciyərlərə metastazlari belə adlanır
C) Qoltuqaltı unilateral limfadenopatiya yarananda
D) Maksilyar sinusda diş rüşeyminin idiopatik psevdotumoru belə adlanır?
E) Vitellin axacağın rudimentar xoşxassəli şişidir

Ədəbiyyat: (sentyabr 2018) “Diagnostic imaging- Pediatrics - “Amyrsys” , 2008.

Bölmə 6. Tənəffüs üzvlərinin və divararaliği orqanlarinin xəstəliklərinin şüa diaqnostikasi

101) Ağciyərlər üçün qızıl standart sayılan müayinə hansıdır?
A) MRT
B) Rentgen

Sitisk.az ödənissiz istifadə üçün

C) Radioizotop
D) KT
E) USM

Ədəbiyyat: Holger Petterson MD «Общее руководство по радиологии» Институт NICER, Москва. 1995. 1330 с., часть1

102) Ağciyər toxumasını qidalandıran bronxial arteriyalar öz başlanğıcını haradan götürür?
A) Ağciyər venalarından
B) Ağciyər arteriyalarından
C) Aortanın qarın hissəsindən
D) Qabırğaarası arteriyalar və aortanın döş hissəsindən
E) Qabırğaarası venalardan

Ədəbiyyat: Л.С.Розенштраух, Н.И.Рыбакова, М.Г.Виннер «Рентгенодиагностика заболеваний органов дыхания». М. Медицина. 1987. 640 с.

103) London sxemi ilə sağ ağciyər neçə seqmentdən ibarətdir?
A) On bir
B) Doqquz
C) On iki
D) Səkkiz
E) On
Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

104) Ağciyərin ən kiçik avtonom anatom vahidi nədir?
A) İki seqment
B) Pay
C) Seqment
D) Asinuslar
E) Paycıq

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

105) Döş qəfəsinin arxa rentgenoqramması ön rentgenoqrammasından nə ilə fərqlənir?
A) Qabırğaların ön və arxa şöbələrinin eninin nisbəti
B) Qabırğaların arxa çıxıntılarının konturlarının aydınlığı və körpücüklərin şəkli

sinsk.az ödənişsiz istifadə üçün

C) Körpücüklərin şəkli
D) Qabırğaların arxa çıxıntılarının konturlarının aydınlığı
E) Qabırğa konturlarının aydınlığı

Ədəbiyyat: А.Н.Кишковский, Л.А.Тютин, Г.Н.Есиновская «Атлас укладок при рентгенологических исследованиях». Л. Медицина. 1987. 520 с.

106) Kerli-B xətləri əsasən ağciyərin hansı hissələrində müşahidə olunur?
A) Zirvə hissədə
B) Hamısında
C) Orta hissədə
D) Kök ətrafi hissədə
E) Bazal hissələrdə

Ədəbiyyat: Д.Кац, К. Мас, С. Гроскин «Секреты рентгенологии». Пер. с анг.. М-СПб, 2003, 704 с.

107) Tənəffüs zamanı ağciyərdə kölgəliyin yerdəyişmə istiqaməti nədən asılıdır?
A) Ölçülərdən
B) Ağciyər kökü ilə əlaqədən
C) Anatomik substratdan
D) Formasından
E) Lokalizasiyasından asılı olur

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

108) Ağciyərdə limfa axarının pozulma simptomları hansılardır?
A) Ağciyər şəklinin güclənməsi və ocaq kölgələri
B) Ağciyər köklərin güclənməsi
C) Plevral xətlər və Kerli tipli xətlər yaranır
D) Damar şəklinin güclənməsi
E) Çoxsaylı ocaqlı kölgəliklər
Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

109) Rentgenoqrammada ağciyərin patoloji törəmələrinin kölgəsinin intensivliyi nədən asılıdır?
A) Ölçü və lokalizasiyadan
B) Formasından
C) Lokalizasiyadan
D) Ölçülərdən
E) Morfoloji substratdan

smsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: Л.С.Розенштраух, Н.И.Рыбакова, М.Г.Виннер «Рентгенодиагностика заболеваний органов дыхания». М. Медицина. 1987. 640 с.

110) Ağciyər sekvestrasiyasının ən xarakterik simptomu hansıdır?
A) Ağciyər kökünün deformasiyası
B) Ağciyər şəklinin güclənməsi
C) Ağciyər şəklinin deformasiyası
D) Diafraqma günbəzinin elevasiyası
E) Bazal sahələrdə məhdudlaşmış kölgə

Ədəbiyyat: Л.Д.Линденбратен, И.П.Королюк «Медицинская радиология и рентгенология». М. Медицина. 1993. 556 с.

111) Diafraqmanın hissəvi relaksasiyası və ağciyərlərin diafraqmaüstü törəmələrinin differensiasiyasında hansı müayinə daha effektlidir?
A) Rentgenoqrafiya
B) USM
C) KT
D) Rentgenoskopiya və xətti tomoqrafiya
E) Rentgenoskopiya

Ədəbiyyat: П.В.Власов «Лучевая диагностика заболеваний органов грудной полости». М. 2006. 311 с.

112) Ağciyər emfizemasında tənəffüs zamanı ağciyərin şəffaflığı necə dəyişir?
A) Aşağı nahiyələrdə azalır
B) Yuxarı nahiyələrdə artır
C) Dəyişmir,stabil olur
D) Aşağı nahiyələrdə artır
E) Bütün nahiyələrdə artır
Ədəbiyyat: П.В.Власов «Лучевая диагностика заболеваний органов грудной полости». М. 2006. 311 с.

113) Ölmüş exinokokkun rentgenoqrammada xarakterik əlaməti hansıdır?
A) Formasının dəyişməsi
B) Formanın və ölçülərin kiçilməsi
C) Kapsulun kalsinozu
D) Ölçülərin kiçilməsi
E) Ölçülərin böyüməsi

sinsis.az ödənişsiz istifadə üçün

